**KAMRAN İMANOV**

# VİDEOYAZILARIN YOUTUBE PORTALINA YÜKLƏNMƏSİNİN HÜQUQİ TƏMİNATI

**Bakı – 2023**

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**Videoyazıların Youtube portalına yüklənməsinin hüquqi təminatı. Bakı, 2023**

**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2023**

# VİDEOYAZILARIN YOUTUBE PORTALINA YÜKLƏNMƏSİNİN HÜQUQİ TƏMİNATI

Son vaxtlar bəzi sosial şəbəkələrdə milli müəlliflərin və ifaçıların mahnılarından ibarət videoroliklərin onlayn resurslarda, o cümlədən YouTube portalında yerləşdirilməsi, onların istifadəsi, hüquq sahibliyi və sərəncamçılığı məsələləri, bu maraqların media şirkətləri tərəfindən təmsil edilməsi ilə bağlı suallar müzakirə olunmaqdadır. Bu məsələ ilə bağlı Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi aşağıdakı şərhləri nəzərə çatdırır:

**1.** Copyright (müəlliflik hüququ və əlaqəli hüquqlar) sisteminin bütün obyektlərinin istifadəsi, əgər obyekt qorunursa**,** yalnız qorunan obyektin hüquq sahibinin razılığı əsasında mümkündür.

Müəllif-hüquq qanunvericiliyinin bu tələbi, YouTube portalında ifaların videoyazılarının yerləşdirilməsi kimi istifadə halında da öz qüvvəsini saxlayır. Lakin bununla birlikdə biz bir sıra halları dəqiq təsnifatlaşdırmalıyıq.

Birincisi, yerləşdirilən obyekt müəllif-hüquq qanunvericiliyi nöqteyi-nəzərindən necə eyniləşdirilməlidir?

İkincisi, yerləşdirilən obyekt qorunurmu?

Üçüncüsü, yerləşdirilən obyektin hüquq sahibi kimdir?

Videoyazı Azərbaycan Respublikasının "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 5-ci maddəsinin 2-ci hissəsində müəllif-hüquq obyektinin obyektiv formalarından biri kimi qeyd edilmişdir. Həmin Qanunun 6-cı maddəsinə uyğun olaraq, videoyazı (bır sıra ölkələrin qanunvericiliklərində videoqram adlanır) müəlliflik hüququnun obyektləri olan əsərlər sırasına bilavasitə daxil edilməmişdir.

Lakin müəlliflik hüququnun obyektlərinin - əsərlərin bu siyahısı açıqdır. Buradan belə çıxır ki, müəlliflik hüququnun obyektlərinin qorunması üçün tələb olunan müəyyən şərtlər daxilində, daha doğrusu, videoyazıların obyektiv ifadə olunmuş yaradıcılıq əməyinin nəticəsi olduğu, yəni onların əsər kimi (əsərin əlamətlərinin olması) təsnif olduğu halda videoyazı müəlliflik hüququnun obyekti kimi müstəqil qorunma ala bilər.

**Videoyazılar arasında musiqili və ədəbi əsərlərin ifalarının yazılması olan videomateriallar xüsusi qrup təşkil edir.**

**Audiovizual vasitələrlə həyata keçirilən bu cür yazılmalar əsərlərin** professional artistlər, həvəskar ifaçılar, yaradıcılıq kollektivləri, eləcə də əsər müəlliflərinin özləri tərəfindən ifa prosesini çatdırır.

İfaların özünə gəldikdə, onlar qanunverici tərəfindən əlaqəli hüquqların obyektlərinə aid edilmişdir və ifaçının hüquqları (ifaya dair müstəsna hüquqlar və müstəsna hüquqlar üzərində qanuna zidd olmayan istənilən sərəncamçılıq üsulları daxil olmaqla) "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 32-ci və 33-cü maddələrində müfəssəl şəkildə tənzimlənmişdir.

Burada xatırlatmaq vacibdir ki, videoyazıların hüquqi rejimi bütövlükdə, o cümlədən əsərlərin ifalarının videoyazıları və onların yaradıcılarının (hazırlayanların) hüquqları qanunvericiliklə müəyyən olunmamışdır.

Bununla birlikdə, əsərin videoyazısı, eləcə də səsyazısı (fonoqram) fiksəetmə üsuludur, onların fərqi isə bu fiksəetmənin həyata keçirildiyi texniki vasitələrin seçilməsindədir. Onları hazırlayanlar isə

həm fiziki, həm də hüquqi şəxslər ola bilər. **Belə yazılma həm yazılan əsərlə (müəlliflik hüququnun obyekti), həm də ifa (əlaqəli hüquqların obyekti) ilə əlaqəlidir.**

Yuxarıda qeyd edildiyi kimi, ifanın videoyazısının müəlliflik hüququnun obyekti kimi hüquqi qorunması bilavasitə müəyyən edilməmiş, eləcə də onu hazırlayanın hüquqları tənzimlənməmişdir.

İfanın videoyazısının əlaqəli hüquqların obyektlərinə aid edilməsinə gəldikdə, milli qanunvericiliyə uyğun olaraq, ifaların videoyazıları **əlaqəli hüquqlar obyektlərinin qapalı siyahısına** daxil edilməmişdir və bununla da ifaların videoyazıları əlaqəli hüquqların obyekti kimi qorunmur (qeyd edək ki, bir sıra kontinental hüquq ölkələrində orijinallıq səviyyəsinin aşağı olması səbəbinə görə audiovizual əsərlərə aid edilməyən videoyazılar (videoqramlar) bütövlükdə əlaqəli hüquqlar obyekti kimi tanınır və bunun altında videoyazıları hazırlayanlarının (istehsalçıların) hüquqları başa düşülür).

**Qeyd edilənlərdən irəli gələn əsas nəticə bundan ibarətdir ki, müəllif-hüquq qanunvericiliyi çərçivəsində, eləcə də beynəlxalq konvensiyalarda musiqili əsərlərin videoyazıları müəlliflik hüququ-**

**nun müstəqil obyektlərinə bilavasitə aid edilmir, eləcə də onların qorunma qabiliyyəti əlaqəli hüquqlar obyektləri kimi tənzimlənmir.**

**Videoyazıların** müəlliflik hüququnun **m**üstəqil obyektlərinə aid edilməməsinin səbəbi onunla bağlıdır ki, **videoyazılarda heç də həmişə yaradıcılıq əlamətləri olmur** və onlar istehsalçıların texniki və təşkilati əməyi nəticəsində yaradılır, onların sırasında isə hüquqi şəxslər də ola bilər.

Videoyazıların, o cümlədən musiqili ifaların videoyazılarının qorunma qabiliyyəti haqında məsələnin qanunvericiliklə həll edilməsinə gəldikdə isə, hazırda bu məsələ milli qanunvericilik çərçivəsində açıq qalır və məhkəmə orqanlarının səlahiyyətlərinə aid edilir.

Lakin hətta əsərlərin videoyazılarının istehsalçılarının hüquqları ilə bağlı kolliziyaları səsyazmaların istehsalçılarının (fonoqram istehsalçılarının) hüquqları ilə analogiya üzrə həll edən orqanlar, o hallarda ki, videoyazıya hüquqlar, əgər əlaqəli hüquqlara əsaslanırlarsa, ilk növbədə ondan çıxış edirlər ki, onların müəlliflik hüquqlarından törəmə olduğu əsas götürülür, **əlaqəli hüquqlara hüquq sahibliyi isə o**

**vaxt legitim sayılır ki, orada müəlliflik hüquqlarının pozulması halı olmasın.**

**Buradan belə çıxır ki, müəlliflik hüququnun bir obyektinin (mahnının) müxtəlif ifalarının hüquq sahibləri müxtəlif əlaqəli hüquq sahibləri ola bilərlər.**

**2.** Əsərin ifasının videoyazı İnternetə yerləşdirilərkən, videoyazını strayklar adlanan sistem vasitəsi ilə yerləşdirən şəxsə qarşı aşağıdakı kateqoriyadan olan şəxslər iddia irəli sürə bilərlər:

- əsərə müəlliflik hüquqlarının sahibləri, çünki söhbət YouTube-də əsərin müasir formada istifadəsindən gedir, qanunvericilik isə müəlliflik hüququnun sahibinin interaktiv kütləvi bildiriş səlahiyyətlərini tənzimləyir [interaktiv bildiriş hüququ];
- ifaya əlaqəli hüquqların sahibləri, onların qismində bir qayda olaraq, həm öz adından, həm də ifaçıların adından (baxmayaraq ki, ifaçılar da ayrıca hüquq sahibi ola bilərlər) fonoqram istehsalçıları (studiyalar) çıxış edirlər;
- yayım təşkilatlarının (televiziya yayım kanalları) və ifaların yerləşdirildiyi videoyazıların daha çox istifadə olunduğu videokadrların hüquq sahibləri);

Bununla birlikdə, videoyazı şəklində təqdim olunan ifa olunmuş əsərə müəlliflik hüququnun sahibləri əsəri ifa edən ifaçıdan və videokadrlarında əks olunmuş TV kanalından (yayım təşkilatından) asılı olmayaraq, onlara qarşı iddia qaldıra bilərlər.

Fonoqram istehsalçıları yalnız özlərinin hüquq sahibi olduqları fonoqramlarla bağlı iddia qaldıra bilərlər.

Yayım təşkilatları yalnız təmsil etdikləri televiziya verilişlərindən və ya TV kanalından kopyalanan videokadrlarla bağlı iddia qaldıra bilərlər.

Bununla belə, əqli mülkiyyət hüquqlarının pozulması ilə bağlı bütün şikayətlər, strayklar adlandırılan sistem YouTube-nin tələblərinə uyğun olaraq aşağıdakı qaydada tərtib olunur:

- Hüquq sahibi müvafiq formanı dolduraraq, konkret videoda öz hüquqlarının pozulması barədə bildirişi You-Tube portalına göndərir;

- şikayətin düzgün tərtib edildiyi və hüquq pozuntusu həqiqətən aşkar oldunduğu halda, mübahisələndirilən məzmun silinir və videonu yükləyən şəxs xəbərdarlıq alır və YouTube çərçivəsində müəlliflik hüququ üzrə kursları keçməlidir;

- belə vəziyyət üç dəfə təkrarlandığı halda (3 xəbərdarlıq), pozuntuya yol vermiş şəxsin hesabı bağlanır, bütün videolar onun kanalından silinir və pozucuya yeni kanallar yaratmaq qadağan edilir.

Strayklar sistemi ilə yanaşı, tez-tez Content ID istifadə olunmaqla, yəni hüquq sahiblərinin musiqili kompozisiyalarının məlumat bazası ilə müqayisə əsasında şikayət sistemi tətbiq edilir.

**3.** Videoyazıların, o cümlədən musiqili əsərlərin videoyazılarının YouTube-nin qaydaları nəzərə alınmaqla yüklənməsinə yuxarıda şərh olunan müəllif-hüquq tələbləri aşağıdakı nəticələrə gəlməyə imkan verir:

**3.1.** Müəllif hüquqları ilə qorunan video-kontenti YouTube portalına yükləmək təşəbbüsü irəli sürən hər hansı şəxsin bu videokontentin əsasını təşkil edən əsərin müəllif hüququnun sahibindən icazəsi omalıdır.

Müəlliflik hüquqlarının pozuntusu barədə bildiriş alındığı halda, yadda saxlamaq lazımdır ki, YouTube portalının qaydalarına uyğun olaraq, bu qorunan videokontent, hətta bu video-kontent bila-

vasitə sizin tərəfinizdən televiziya verilişindən, konsertdən və s. yazılmışdırsa belə, silinir.

Unutmamalıyıq ki, YouTube çərçivəsində hüquq pozuntusunun aşkara çıxarılması həm təqdim olunmuş videokontenti hüquq sahibləri tərəfindən yüklənmiş mövcud kontent nümunələri ilə müqayisə edən Content ID sistemi, həm də hüquq sahibi tərəfindən YouTube portalına göndərilmiş şikayət-tələb əsasında həyata keçirilə bilər.

Daha çox yayılmış şikayət formasının (Content ID sistemi) istifadə olunduğu halda hüquq sahibi həm bu videokontentin bloklanmasını, həm də onun monetizasiyasını, yəni gəlirin həmin videonu yükləyən şəxslə öz aralarında bölünməsini tələb edə bilər.

Content ID sisteminin sizin videorolik barədə tələbi ilə razı deyilsinizsə və bunun üçün qəti hüquqi əsasınız varsa, Sizə Content ID sisteminin videorolikinizlə bağlı tələbini mübahisələndirmək imkanı yaradılır.

Ümumiyyətlə, yadda saxlamaq lazımdır ki, YouTube müəlliflik hüququ ilə bağlı mübahisələrdə vasitəçi kimi çıxış etmir və belə mübahisələri tərəflər məhkəmədə həll edirlər.

**3.2.** Müəyyən ifaçılar tərəfindən edilmiş əsər ifasının fonoqram yazılarına əlaqəli hüquqların sahibləri olan musiqili leybllar tərəfindən şikayətin daxil olduğu halda, yadda saxlamaq lazımdır ki, müəyyən ifaçılar tərəfindən edilmiş ifanın fonoqram yazılarına əlaqəli hüquqların sahibi olan hansısa musiqili leyblin yalnız eyni müəlliflik hüququ obyektinin ifa olunması səbəbinə görə Sizin videoyazınızın silinməsini tələb etmək hüququ yoxdur.

Sizin videoyazınızı silmək tələbi o halda mümkündür ki, müəlliflik hüququ obytektinin hansısa ifaçı tərəfindən edilmiş ifasının fonoqram yazısına hüquq sahibi olan musiqili leyblın həmin musiqili əsərə müəlliflik hüquqları olsun (müəlliflik hüquqları müəllif və ya hüquq sahibi ilə bağlanılmış lisenziya müqaviləsi əsasında alınmışdır).

Burada nəzərə almaq lazımdır ki, həmin müəlliflik hüququ obyekti qorunur və qorunma müddəti bitməmişdir, ictimai varidat dairəsinə keçməmişdir. Müəlliflik hüququnun obyektinin ictimai varidat dairəsinə keçdiyi və dövlət varıdatı elan edilmədiyi halda heç bir razılıq alınması tələb olunmur.

**3.3.** Əqli mülkiyyət hüquqlarının pozulması ilə bağlı iddialar yayım təşkilatları (TV kanallar) və ya onların nümayəndələri tərəfindən də verilə bilər.

Yadda saxlamaq lazımdır ki, belə halda müəliflik hüququnun sahibi onun musiqi kompozisiyanın daxil olduğu videokadrların istifadəsinə görə müəllif qonorarı almaq hüququnu özündə saxlayır.

**4.** Televiziya kanallarının və digər fiziki və ya hüquqi şəxslərin maraqlarının ayrıca şirkətlər və ya təşkilatlar tərəfindən təmsil olunmasına gəldikdə, qeyd etmək vacibdir ki, belə agentlərə müraciət edən televiziya kanalları və fiziki və ya hüquqi şəxslər onlara, həmçinin YouTube videohostinqinə ifa olunan musiqili əsərə hüquqların onlara məxsus olduğunu təsdiq edən lisenziya müqaviləsi təqdim etməlidirlər. Lisenziya müqavilələrində başqa şərtlər göstərilməyibsə, videoroliklərin baxışına görə əldə olunan gəlirin bir hissəsi əsərlərin müəlliflərinə ödənilməlidir.

Əlavə olaraq, bildiririk ki, rəqəmli şəbəkədə təmsilçilik ilə məşğul olan şirkətlərin fəaliyyəti ilə bağlı bağlı müvafiq araşdırma aparıldıqdan sonra ətraflı məlumat veriləcəkdir.

**КАМРАН ИМАНОВ**

# ПРАВОВАЯ ОБЕСПЕЧЕННОСТЬ ЗАГРУЗКИ ВИДЕОЗАПИСЕЙ В YOUTUBE (ИНТЕРНЕТ)

**Баку – 2023**

**Камран Иманов,**

Председатель Правления Агентства Интеллектуальной Собственности Азербайджанской Республики.

**Правовая обеспеченность загрузки видеозаписей в YouTube (Интернет). Баку, 2023**

**© Агентство Интеллектуальной Собственности Азербайджанской Республики, 2023**

# ПРАВОВАЯ ОБЕСПЕЧЕННОСТЬ ЗАГРУЗКИ ВИДЕОЗАПИСЕЙ В YOUTUBE (ИНТЕРНЕТ)

В некоторых социальных сетях в последнее время обсуждаются вопросы размещения видеороликов с песнями национальных авторов и исполнителей на онлайн ресурсах, в частности видеохостинге YouTube, их использование, вопросы правообладания и распоряжения, представления этих интересов со стороны медиа компаний. По данному вопросу Агентство Интеллектуальной Собственности Азербайджанской Республики хотело бы дать нижеприведенное разъяснение.

**1.** Использование любого объекта системы Copyright (авторское право и смежные права), если объект охраняется, допустимо только с разрешения правообладателя охраняемого объекта.

Данное требование авторско-правового законодательства сохраняет свою силу и для случая такого использования, как размещение видеозаписи исполнения на YouTube. Однако при

этом мы обязаны четко классифицировать ряд позиций.

Во-первых, как идентифицируется размещаемый объект с точки зрения Copyright-законодательства?

Во-вторых, охраняется ли размещаемый объект?

В-третьих, кто является правообладателем на размещаемый объект?

Видеозапись, как одна их форм объективного представления авторско-правового объекта отмечается в статье 5(2) азербайджанского авторско-правового законодательства. Согласно ст.6 законодательства об авторском праве видеозапись (в ряде законодательства стран именуется как видеограмма) непосредственно не входит в число объектов авторского права, **являющихся произведениями**.

Однако, этот перечень объектов авторского права – произведений является открытым. Отсюда следует, что при определенных условиях, предъявляемых к охране объектов авторского права, а именно возможности их классификации как произведений (наличие признаков произве-

дения), т.е. объективно выраженных результатов творческого труда, видеозапись может получить **самостоятельную** охрану в качестве объекта авторского права.

**Среди видеозаписей отдельную группу составляют видеоматериалы, являющиеся записью исполнений музыкальных и литературных произведений.** Подобные записи аудиовизуальными средствами передают процесс исполнения произведений профессиональными артистами, исполнителями-любителями, творческими коллективами, а также самими авторами произведений.

**Что касается самих исполнений, то они отнесены законодателем к объектам смежных прав и права исполнителя (включая исключительное право на исполнение и распоряжение исключительным правом любым не противоречащим закону способом) детально регламентированы в ст. 32 и 33 национального авторского-правового законодательства.**

**Важно при этом напомнить, что правовой режим видеозаписей в целом, в том числе видеозаписей исполнения произведений и права**

**их создателя (изготовителя) законодательно не определены.**

Вместе с тем видеозапись произведения, также, как и звукозапись (фонограмма) является способом фиксации, а различаются они выбором технических средств осуществления этой фиксации. Их изготовителем может быть, как физическое, так и юридическое лицо. **Такая запись связана как с записываемым произведением (объектом авторского права), так и с исполнением (объектом смежных прав).**

Как отмечено выше, правовой статус видеозаписи исполнения в качестве охраняемого авторском правом объекта непосредственно не определен, равно как и не регламентированы права ее изготовителя.

Что касается отнесения видеозаписи исполнения к объектам смежных прав, то согласно национальному законодательству, видеозаписи исполнений не включены в **закрытый перечень объектов смежных прав** и тем самым видеозаписи исполнений не охраняются в качестве объектов смежных прав (заметим, что в ряде стран континентального права видеозаписи

(видеограммы) в целом признаются объектами смежных прав и под ними понимаются права изготовителей (производителей) видеозаписей, которые не могут быть отнесены к аудиовизуальным произведения в связи с низкой степенью оригинальности).

**Главный вывод, который следует из изложенного заключается в том, что в рамках национального авторско-правового законодательства, равно как и в международных конвенциях, видеозаписи музыкальных произведений непосредственно не относятся к самостоятельным объектам авторского права, а также не регламентируется их охраноспособность как объектов смежных прав.**

Причины не отнесения видеозаписей к самостоятельным объектам авторского права связаны с тем, что **видеозаписи не всегда содержат признаки произведений** и создаются они техническим и организационным трудом изготовителей, в числе которых могут быть и юридические лица. Что касается законодательного разрешения вопроса об **охраноспособности видеозаписей**, в т.ч. **видеозаписей музыкаль-**

**ных исполнений**, то он остается в настоящее время открытым в рамках национального законодательства **и относится к прерогативе судебных органов**.

Однако, даже в тех случаях, когда по аналогии с правами изготовителей звукозаписей (изготовителей фонограмм) органы, разрешающие коллизии, связанные с правами изготовителей видеозаписей произведений изначально исходят из того, что права на видеозапись, если и полагаются смежными правами, то они являются производными от авторских прав, а **правообладание смежными правами является легитимным, если нет нарушения авторских прав**.

**Отсюда следует, что на разные исполнения одного и того же объекта авторского права (песни) могут быть разные правообладатели смежных прав на исполнения.**

**2.** При размещении видеозаписи исполнения произведения в Интернете претензии к лицу, разместившему видеозапись именуемой

системой страйков, могут предъявлять следующие категории лиц:

- обладатели авторских прав на произ-ведение, поскольку речь идет о современной форме его использования в YouTube, а законодательство регламентирует правомочие правообладателя авторского права на интерактивное доведение до всеобщего сведения [interaktiv bildiriş hüququ];

- обладатели смежных прав на исполнение, в качестве которых, как правило, выступают изготовители фонограмм (студии), которые выступают как от своего имени, так и от имени исполнителей (хотя и обладателями прав могут быть, и исполнители отдельно);

- обладатели прав организации вещания (телевизионных вещательных каналов), видеокадры которой чаще всего и используются в размещаемой видеозаписи исполнения.

При этом обладатели авторских прав на исполненное произведение, представленное в виде видеозаписи могут предъявлять претензии вне зависимости от исполнителя, исполнившего

произведение и канала TV (организации вещания), чьи видеокадры находят отражение.

Производители фонограмм могут предъявлять претензии только на исполнения, фонограммами которых они являются правообладателями.

Организации вещания вправе предъявлять претензии исключительно на видеокадры, скопированные с телепередачи представляемого или канала TV.

При этом все жалобы по нарушению прав интеллектуальной собственности, так называемая система страйков, согласно требовании YouTube оформляются в следующем порядке:

- правообладатель, заполнив соответствующую форму, направляет в YouTube уведомление о нарушении своих прав на конкретном видео;

- при наличии правильно оформленной жалобы и выявлении, что нарушение действительно имело место, оспариваемый контент удаляется, а лицо, загрузившие видео, получает предупреждение, и обязан пройти курсы по авторскому праву в рамках YouTube;

- при троекратном повторении ситуации (3 предупреждения) аккаунт нарушителя блокируется, все его ролики удаляются с его канала и нарушителю запрещается создавать новые каналы.

Наряду с системой страйков, часто применяется и система жалоб с использованием Content ID, т.е. на основе сверки с базой данных музыкальных композиций правообладателей.

**3.** Изложенные выше авторско-правовые требования к загрузке видеозаписей, в том числе видеозаписей музыкальных произведений с учетом правил YouTube позволяют придти к следующим выводам:

3.1. Любое лицо, выступившее с инициативой загрузки охраняемого авторским правом видеоконтента на YouTube обязан располагать разрешением со стороны правообладателя авторским правом произведения, лежащего в основе этого видео-контента. В случае получения уведомления о нарушении авторских прав, следует помнить, что YouTube согласно правилам, удалит этот охраняемый видеоконтент, даже, если

видеоконтент с телепередачи, концерта и т.п. были записаны непосредственно вами. Следует помнить, что выявление правонарушения может осуществляться как в рамках YouTube благодаря системе Content ID, сравнивающей поданный видеоконтент с имеющимися образцами контента, загруженного правообладателями, а также на основе жалобы-заявки правообладателя, направленной в YouTube.

В случае использования наиболее распространенной формы жалоб (система Content ID) правообладатель может требовать, как блокировки этого видеоконтента, так и его монетизации, т.е. распределения дохода между собой и лицом, загрузившим видео. В случае несогласия с заявкой Content ID на ваш видеоролик и при наличии веских правовых причин, вам предоставляется возможность оспорить заявку Content ID на ваш видеоролик.

В целом, следует помнить, что YouTube не выступает посредником в спорах об авторском праве и конфликтующие стороны разрешают их в суде.

3.2. В случае поступлений жалоб от музыкальных лейблов, обладающих смежными правами на записи фонограмм исполнения произведения определенными исполнителями, следует помнить, что какой-то музыкальный лейбл, обладающий смежными правами на запись фонограммы исполнения определенным исполнителем не имеет права требовать исключение вашей видеозаписи только по той причине, что исполняется один и тот же объект авторского права.

Требование удаления вашей записи возможно только в том случай, если у обладателя музыкального лейбла на запись фонограммы исполнения каким-то исполнителем объекта авторского права, имеются также и авторские права на это музыкальное произведение (авторские права были получены на основе лицензионного договора с обладателем авторского права или автором).

При этом следует иметь ввиду, что объект авторского права охраняется и еще не истекли сроки охраны, а объект не перешел в общественное достояние. В случае, если объект авторс-

кого права, перешел в общественного достояние и не переведен в государственное достояние, никакого разрешения от правообладателя авторских прав не требуется.

3.3. Претензии на нарушение прав интеллектуальной собственности могут исходить и от организаций вещания (TV-каналов) или их представителей.

Следует помнить, что при этом у правообладателя авторского права сохраняется право на получение вознаграждения в связи с использованием видеокадров с его музыкальной композицией.

**4.** Относительно представления интересов телеканалов и других физических и юридических лиц со стороны отдельных компаний или организаций, необходимо отметить, что телеканалы или другие физические или юридические лица, обращающиеся к таким агентам, должны представлять им, а также видеохостингу YouTube лицензионные соглашения, подтверждающие их права на исполненные музыкальные произведения. А при наличии таковых, часть доходов, вы-

рученных от просмотра данных видеороликов должны перечисляться авторам данных произведений, если иное не предусмотрено в лицензионных договорах.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.

Подготовлено в Агентстве Интеллектуальной Собственности Азербайджанской Республики.